Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 216
(5027) CÜMƏ, 26 SENTYABR 2008-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan.news.az | Qiyməti 30 qəpik

Şeyxülislam müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi açmışdır

Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir

Sentyabrın 25-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir.

Mərasimi şeyxülislam açdı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin çıxışı

- Bismillahir-rəhmanir-rəhim!

Zati aliləri möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi, hər il olduğu kimi, bu il də müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu, on bir ayın sultanı mübarək Ramazan ayında salamlayır, iftar dəvətimi qəbul etdiyinizə və buraya gəlməklə mənə, eləcə də bütövlükdə Azərbaycan dindarlarına böyük sevinc bəxş etdiyinizə görə, hər birinizə, xüsusilə cənab Prezident, Sizə dərin təşəkkürümü və ehtiramımı bildirirəm.

Ramazan sevgi, mərhəmət, ruzi, dostluq, qardaşlıq və həmrəylik ayıdır. Belə bir ayda Prezident həzrətlərinin bizimlə birgə iftar etməsi onun xalqımızla həmrəyliyinin, milli-mənəvi dəyərlərimizə yüksək qiymət verməsinin bariz nümunəsi, həm də Azərbaycan müsəlmanlarına böyük hörmətinin göstəricisidir. Mən belə yüksək münasibətə görə Azərbaycan dindarları adından və şeyxülislam kimi şəxsən öz adımdan Zati-alilərinizə dərin minnətdarlığımı bildirir və Sizə ulu Tanrıdan cansağlığı, uzun ömür, səadət, Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Bu gün biz milli və dini mənsubiyyətdən asılı olmayaraq, Azərbaycan adlı böyük bir ailənin bərabər hüquqlu üzvləri kimi iftar süfrəsində bir araya gəlmişik. Deməli, bu, yalnız iftar süfrəsi deyil, həm də birliyimizin, Prezidentimizin ətrafında sıx birləşməyimizin və tolerantlığımızın nümunəsidir. Biz bütün bunlara, ölkəmizdə sabitliyin və sürətli inkişafın təmin olunmasına, eləcə də vətəndaş həmrəyliyinin, vicdan azadlığının və tolerantlığın qorunub saxlanılmasına, inkişafına görə ulu öndər Heydər Əliyevə borcluyuq. Çünki bu böyük insan olmasaydı, nə bugünkü inkişafımız, nə həmrəyliyimiz, nə də Azərbaycan adlı dövlətimiz olardı. Bu baxımdan Heydər Əliyev, - Allah ona rəhmət eləsin, - təkcə dövlətimizin və xalqımızın deyil, eyni zamanda, milli-mənəvi dəyərlərimizin və gələcəyimizin xilaskarıdır.

Ümummilli liderimizin əvəzsiz xidmətləri nəticəsində Azərbaycanda tolerantlığın yüksək səviyyədə olması bizim iftixarla söylədiyimiz həqiqət, xarici siyasətçilərin və diplomatların isə etiraf etdikləri həqiqətdir.

2009-cu ilin oktyabr ayında Bakıda keçiriləcək Dünya din liderlərinin sammiti dəfələrlə yüksək səviyyəli mötəbər tədbirlərə ev sahibliyi etmiş ölkəmizin nüfuzunun daha da artmasının nümunəsidir. Bundan başqa, təşəbbüskarlarından biri kimi, Azərbaycanın dini liderinin təklifi ilə Birləşmiş Millətlər Təşkilatı nəzdində Dinlərin Məşvərət Şurasının yaradılmasının və BMT rəhbərliyi tərəfindən dəstəklənməsinin özü də Azərbaycanın, zati-alilləri, Sizin dünya birliyi səviyyəsində yüksək mövqeyinizin bariz göstəricisidir.

Mən ümummilli liderimizin ruhu qarşısında baş əyib, böyük Allahdan ona rəhmət diləyir, qürur hissi ilə bəyan edirəm ki, Heydər Əliyev həzrətlərinin yolunu bu gün, sözün əsl mənasında, onun layiqli varisi olan Prezident İlham Əliyev həzrətləri uğurla davam etdirir. Bu gün Azərbaycan təkcə iqtisadi göstəricilərinə və ictimai-siyasi sabitliyinə görə deyil, həm də dini durumun və tolerantlığın səviyyəsi, eləcə də xalqın milli-mənəvi dəyərlərinə yüksək münasibət baxımından regionun lider dövlətidir.

İlham Əliyev həzrətləri milli-mənəvi dəyərlərimizin və dini abidələrimizin himayəçisi kimi böyük tarixə malik məscid və ziyarətgahlarımızın bərpası sahəsində ardıcıl tədbirlər həyata keçirir. Bərpası artıq başa çatmış Bibiheybət ziyarətgahını, əsaslı təmiri hələ davam edən Təzəpir, Əjdərbəy məscidlərinin, eləcə də digər məscidlərin, dini ocaqların, həmçinin sinaqoq və kilsələrdə aparılan tikinti-bərpa işlərini görəndə bir Azərbaycan vətəndaşı kimi fərəh hissi keçirməmək mümkün deyildir.

Bu sahədə milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın məqsədyönlü və ardıcıl fəaliyyəti də xüsusi qeyd edilməlidir. YUNESKO-nun qərarı ilə Bakı şəhərinin 2009-cu il üçün islam mədəniyyətinin paytaxtı elan edilməsi bilavasitə Azərbaycanın birinci xanımının əməyinin bəhrəsidir.

Azərbaycanda əhalinin böyük əksəriyyətini müsəlmanlar təşkil etməsinə baxmayaraq, digər konfessiyaların mənsublarına - xristianlara, yəhudilərə və başqa dinlərin nümayədələrinə bərabər şərait yaradılır, onların öz inanc və etiqadlarına uyğun yaşamaları üçün dövlət tərəfindən bütün lazımi tədbirlər görülür.

Möhtərəm Prezident!

Azərbaycan dindarları zati-alilərinizin gərgin əməyi və yüksək bacarığı sayəsində ölkəmizin çətin sınaqlardan uğurla çıxdığını çox gözəl bilirlər. Biz onu da bilirik ki, Azərbaycanı, ölkəmizin sürətlə inkişafını və bölgənin lider dövlətinə çevrilməsini istəməyən, hər vəchlə bunun qarşısını almağa çalışan qüvvələr də var. Təəssüf ki, bu qüvvələr qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün din amilindən istifadə etməkdən, dinlər və məzhəblər arasında qarşıdurma yaratmaqdan da çəkinmirlər.

Zati-aliləri, Sizi əmin edirik ki, rəhbərliyiniz altında sürətlə inkişaf edən dövlətimizi öz yolundan döndərmək, cəmiyyətdəki ictimai-siyasi sabitliyi pozmaq, eləcə də dini durumda və bu cəmiyyətin fəal qüvvəsi olan dindarlar arasında gərginlik yaratmaq cəhdləri Yaradanın köməyi ilə əsla baş tutmayacaqdır.

Biz inanırıq ki, inşallah, zati-alilərinizin doğma Azərbaycanımızla bağlı bütün arzuları və ideyaları reallaşacaqdır. Ulu öndər Heydər Əliyevin arzuladığı kimi, Qarabağ düyünü açılacaq, Azərbaycanın ərazi bütövlüyü Sizin rəhbərliyinizlə təmin olunacaqdır.

Ramazan həm də bərəkət və uğur ayıdır. Mən dua edirəm ki, Ramazan ayının bərəkəti xalqımızın və zati-alilərinizin üzərindən əskik olmasın. İnşallah.

Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Din qardaşlarım!

Hörmətli səfirlər!

Sizi səmimi qəlbdən bir daha salamlayır, təşəkkürümü bildirirəm.

Zati-aliləri, Sizə Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Allah köməyiniz olsun!

Rus Pravoslav kilsəsinin Bakı və Xəzəryanı yeparxiyasının rəhbəri Aleksandr Atanın çıxışı

- Möhtərəm cənab Prezident!

Möhtərəm şeyxülislam!

Hörmətli Semyon Barisoviç!

Hörmətli Yan Çapla!

Dinin dövlətdən ayrılması demokratik dövlətin postulatıdır.

Demokratik dövlət kimi Azərbaycan da bu prinsipə riayət edir. Azərbaycan Konstitusiyasında deyilir ki, Azərbaycan Respublikası dünyəvi dövlətdir və bu prinsipə ölkənin həyatında dönmədən riayət edilir.

Deməliyəm ki, bizdə dövlət ilə dini icmalar arasında çox konstruktiv münasibətlər yaranmışdır. Xoşbəxtlikdən, bu münasibət dini ekstremizmə qarşı mübarizə deyil, dini icmaların fəaliyyətinə dövlətin bütün səviyyələrdə qayğısıdır. Xüsusi vurğulamaq istərdim ki, son iki ildə dövlət ilə dinin münasibətlərinin dinamikası yaxşılığa doğru çox fəal surətdə dəyişmişdir. Dini icmaların həyatında necə mühüm dəyişikliklər baş verməsinin şahidiyik.

Cənab Prezident, bütün bunlar xeyli dərəcədə Sizin fəaliyyətiniz sayəsində baş verir və buna görə biz Sizə çox minnətdarıq. Sizə uğurlar arzulayıram, Allah köməyiniz olsun!

Azərbaycanın dağ yəhudiləri icmasının sədri Semyon İxiilovun çıxışı

- Zati-aliləri cənab Prezident!

Möhtərəm şeyxülislam!

Möhtərəm Aleksandr Ata!

Monsenyor Yan!

Hörmətli cənablar!

Bu gün iftar məclisində olmağım mənə çox xoşdur. Ənənəyə görə, bu gün Prezident də burada bizimlədir və biz onu görməyə çox şadıq. Bu, çox xoş hadisədir. Azərbaycanın və Qafqazın bütün müsəlmanlarına arzum budur ki, Allah onların dualarını eşitsin və orucunu qəbul etsin.

Ramazanın əsas ənənələrindən biri kasıblara kömək etməkdir ki, onlar da iftar süfrəsi aça bilsinlər. Allaha şükür, bizdə yoxsulluq aradan qalxır və ümidvaram ki, yaxın 4-5 ildə bizdə, ümumiyyətlə, yoxsulluq olmayacaqdır. Biz fəxr edirik ki, Azərbaycanın Heydər Əliyev kimi rəhbəri olmuşdur. O, özünün zəngin dövlətçilik və siyasi təcrübəsi sayəsində ölkəni çox dərin böhran vəziyyətindən çıxarmağa və onu inkişaf yolu ilə irəlilətməyə nail oldu. Üstəlik, nail oldu ki, Azərbaycanı tanımağa başladılar və indi Azərbaycanı bütün dünyada tanıyırlar.

Bu gün bu estafet bizim hörmətli Prezidentin əlindədir. Ölkənin inkişafı üçün nə qədər işlər görüldüyünün şahidiyik.Gözləri görən hər kəs bunu təsdiq edər. Yeri gəlmişkən, demək istəyirəm, görmə ilə bağlı problemim yarananda məni məşhur oftalmoloq, akademik Zərifə xanım Əliyeva müalicə etmişdi. Allah ona rəhmət eləsin. Bu hadisədən 25 il sonra cərrahiyyə əməliyyatına ehtiyacım olanda, mənə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanım Əliyeva kömək etdi.

Bu müqəddəs ailənin üzvləri - vaxtilə Heydər Əliyev və Zərifə xanım, indi isə İlham Heydər oğlu, Mehriban xanım, Leyla xanım ölkədə çox işlər görmüşlər və görürlər. Keçmişə nəzər salsaq deyə bilərik ki, bütövlükdə XX əsrdə indi görülən qədər iş görülməmişdir.

Mən möhtərəm cənab Prezidentə uğurlar arzulamaq istəyirəm. Bu il iyulun 12-də fərəhli bir hadisə baş verdi - Bibiheybət məscidinin açılışı oldu. Mən sevinirdim ki, həqiqətən, çox böyük iş görülmüş, belə bir gözəl məbəd yaradılmışdır. Zənnimcə, yaxın gələcəkdə respublikamız yalnız tərəqqi edəcəkdir. Düşünürəm ki, Azərbaycan - bizim azad, inkişaf etmiş, güclü, doğma Azərbaycanımız həmişə yaşayacaqdır.

Diqqətinizə görə sağ olun.

Roma katolik kilsəsinin Azərbaycandakı nümayəndəsi **Yan ÇAPLA** Azərbaycandakı Apostol Nunsi Klaudio Qucerottinin məktubunu oxudu. Məktubda deyilir:

- Mən çox böyük sevinc hissi ilə müqəddəs Ramazan ayının başa çatması münasibətilə Sizin bayram şənliyinizə qoşuluram. Bu bayramda Sizinlə birlikdə şəxsən iştirak edə bilmədiyimə görə, mənim fikirlərimi Sizə çatdırmağı hörmətli Yan Çapla ataya həvalə edirəm. Mənim arzularım pravoslav və yəhudi icmalarının başçılarının - zati-müqəddəsləri Vladıka Aleksandrın və möhtərəm cənab Semyon Borisoviç İxiilovun səmimi arzuları ilə üst-üstə düşür.

Cənab Prezident, müqəddəs Papa XVI Benedikt Sizə və möhtərəm şeyxülislama bu münasibətlə xüsusi məktub göndərmişdir. Mən keçən həftə Vatikanda Papa ilə görüşərkən etdiyi xahişi yerinə yetirərək, Azərbaycanın bütün dindar müsəlmanlarına onun qardaşlıq salamını çatdırmaq istəyirəm.

İcazə verin, öz şəxsi mülahizələrimi də əlavə edim. İndi Qafqazın sabitliyə həmişəkindən daha çox ehtiyacı var. Dünya birliyi indi həmişəkindən daha artıq dərəcədə başa düşür ki, bu torpaqlardan sülh göyərçini pərvazlana bilər və yaxud bütün dünyanı bürüyə biləcək yeni anlaşılmazlıqların kədərli əlamətləri yarana bilər. Son onilliklərdə biz ümid edirdik ki, bu ikinci ehtimala birdəfəlik son qoyulmuşdur, lakin indi aydın oldu ki, Ulu Tanrı köməyini əsirgəsə, bu təhlükə yenidən yarana bilər.

Arzum budur ki, zəngin qarşılıqlı anlaşma və tolerantlıq ənənələrinə malik olan Azərbaycan və bu ölkədə yaşayan bütün dindarlar ölkənin siyasi və dini rəhbərlərinin yorulmaq bilməyən səyləri sayəsində bütün istiqamətlər üzrə hamıya əməkdaşlıq nümunəsi göstərə bilsinlər, onun bütün sərvətləri artsın, mədəniyyəti, iqtisadiyyatı tərəqqi etsin, başqa xalqlar bütün insanların şəxsiyyətinə və hüquqlarına hörmət etməyi onlardan öyrənsinlər. Qoy Mərhəmətli Allah bu məsələdə bizə kömək etsin və bu konkret vəzifəni həyata keçirməyimizə imkan versin.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində çıxış etdi.

(Dövlətimizin başçısının çıxışı qəzetin bugünkü nömrəsində dərc olunur).

* * *

Şeyxülislam **Allahşükür PAŞAZADƏ:** Allah cansağlığı versin. Doğrudan da, Prezident həzrətləri, mən xaricdə olanda görürəm - Azərbaycanı tanıyırlar. Bu gün Azərbaycanı İlham Əliyevlə tanıyırlar. Yəni Prezident kimi İlham Əliyevlə tanıyırlar. Bu, məni çox sevindirir.

Şeyx kimi, bir dindar kimi mən Azərbaycanın gələcəyinə inanıram. Prezident həzrətlərinin dediyi kimi, inşallah, gələcəyimiz xoşbəxt olacaqdır. Bəli, bəzi qüvvələr, bəzi məsələlər var, bizi gözü götürməyən adamlar da vardır. Vaxtilə bizim evimizdə bir hadisə olanda anam tez bir dua yazardı. Amma mən istəyirəm ki, Prezident həzrətlərinə Ayətül-kürsü duasını verək. Bu, Quranın ayəsidir. Prezidentimizin çıxışları, danışıqları çox gözəl görünür. Qoy Allah-Taala Sizi bu dua ilə hifz eləsin!

* * *

Prezident İlham Əliyevə üzərində Quranın Ayətülkürsü ayəsi toxunmuş xalça təqdim olundu.

Allahşükür PAŞAZADƏ: Bu mübarək gündə ulu öndər Heydər Əliyev həzrətlərini yad edək, onun ruhuna dua oxuyaq. Bayaq Zərifə xanım haqqında danışıldı, onunla bərabər, dünyadan gedənləri, şəhidlərimizi də yad edək. İndi Quran oxunacaq. Bu duaların savabını dünyadan gedənlərə bağışlayaq. Xüsusən Heydər Əliyevin ruhuna. Onun ruhu bu gün bizimlədir, həmişə, gələcəkdə də bizimlə olacaqdır.

* * *

Sonra Quran oxundu, iftar süfrəsi açıldı.

İftar mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş səfirləri, dini icmaların nümayəndələri, Milli Məclisin deputatları iştirak edirdilər.

AzərTAc